# *TƏHSİLİN KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİ, QİYMƏTLƏNDİRİLMƏSİ VƏ İDARƏ OLUNMASI MƏSƏLƏLƏRİ*

UOT 37.0

***Könül Sahib qızı Hüseynova***
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Azərbaycan Respublikası Təhsil İnstitutu*

## TƏLƏBƏLƏRİN TƏLİM KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNDƏ NƏZARƏT-QİYMƏTLƏNDİRMƏ SİSTEMİNİN ROLU

***Кёнуль Сахиб гызы Гусейнова***
*докторант по программе доктора философии*
*Институт Образования Азербайджанской Республики*

## РОЛЬ СИСТЕМЫ МОНИТОРИНГА И ОЦЕНИВАНИЯ В ПОВЫШЕНИИ КАЧЕСТВА ОБУЧЕНИЯ СТУДЕНТОВ

***Konul Sahib Huseynova***
*doctorial student in the program of doctor of philosophy*
*Institute of Education of the Republic of Azerbaijan*

## ROLE OF THE MONITORING AND EVALUATION SYSTEM IN IMPROVING THE QUALITY OF STUDENT TRAINING

**Xülasə.** Nəzarət (yoxlama) növləri təlim prosesində sistemli nəzarəti həyata keçirir. Ayrı-ayrı fənlər üzrə tələbələrin (şagirdlərin) təlim nəticələrinin səviyyəsini vaxtında müəyyənləşdirir. Həmin səviyyənin dövlət təhsil standartlarının tələblərinə uyğunluq dərəcəsi ilə bağlı müvafiq nəticə çıxarmağa imkan verir. Nəzarət bütün təlim dövrü ərzində keçirildiyi üçün onun bütün forma və metodlarının bir vəhdət halında tətbiqinin zəruriliyini şərtləndirir.
***Açar sözlər:*** *nəzarət-qiymətləndirmə, qiymətləndirmə mexanizmi, keyfiyyət modeli, təlim prosesi, yoxlama funksiyası*

**Резюме.** Виды контроля (проверки) для проведения систематического контроля в процессе обучения, своевременно определяет уровень успеваемости студентов (школьников) по разным предметам. Требования государственных образовательных стандартов данного уровня позволяет сделать соответствующие выводы о степени соответствия, так как контроль проводился в течение всего периода обучения и в случае единства всех его форм и методов обуславливает необходимость применения.
***Ключевые слова:*** *контроль-оценивание, механизм оценивания, модель качества, учебный процесс, функция проверки*

**Summary:** Types of control (inspection) to carry out systematic control in the learning process, learning outcomes of students (pupils) on separate subjects determines the level in a timely manner. To the requirements of the state educational standards of that level allows to draw appropriate conclusions about the degree of conformity. Because the control is carried out during the entire training period in the case of a unity of all its forms and methods conditions the necessity of application
***Key words:*** *monitoring and evaluation, evaluation mechanism, quality model, learning process, inspection function.*

Hazırda təhsil sahəsində, o cümlədən ali təhsildə respublikamızda ciddi islahatlar həyata keçirilir. Bu islahatların başlıca məqsədi təhsilin keyfiyyətini yüksəltmək, onu inkişaf etdirmək-

dir. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda bu məsələyə xüsusi diqqət yetirilmiş, təlim keyfiyyətinin təmin olunması təhsilin inkişaf strategiyasının əsas istiqaməti kimi müəyyən edilmişdir. Orada qeyd edildiyi kimi, sürətlə modernləşən Azərbaycan Respublikasında təhsil sisteminin insan kapitalının inkişafı çağırışlarına cavab verməsi istiqamətində yeni addımların atılmasına və təhsilin keyfiyyət göstəricilərinin Avropa standartlarına uyğunlaşdırılmasına ehtiyac vardır. Təhsilin keyfiyyətini şərtləndirən amillərdən biri də təlimdə nəzarət və qiymətləndirmə sisteminin yenidən qurulmasından ibarətdir. Təlim prosesinin təkmilləşdirilməsi, təhsilin keyfiyyətlərinin yüksəldilməsi, təhsilalanların nailiyyətləri barədə obyektiv məlumatların əldə edilməsi, habelə dövlət təhsil standartlarının müntəzəm monitorinqinin həyata keçirilməsi üçün müasir nəzarət və qiymətləndirmə mexanizminin yaradılması vacib vəzifə kimi irəli sürülmüşdür.

Müasir nəzarət və qiymətləndirmə mexanizmi yalnız "keyfiyyət modeli" üzərində qurulur; əsas məqsəd təhsilin keyfiyyətlərini yüksəltmək, təlim nəticələrini obyektiv qiymətləndirmək, dəqiq proqnozlaşdırma və korreksiya işi aparmaqdan ibarətdir. Nəzarət qarşıya qoyulmuş məqsədlə əldə olunmuş nəticəni tutuşdurmaqda ifadə olunur. Başqa sözlə, nəzarət təhsilalanların bilik və bacarıqlarının aşkara çıxarılması, ölçülməsi və dəyərləndirilməsi prosesini özündə birləşdirir. O, yoxlama və qiymətləndirmə ilə birlikdə təlim prosesinin həlledici pilləsini təşkil edir. Nəzarət və yoxlamaların nəticələri təhsilalanların təlim müvəffəqiyyətlərini düzgün qiymətləndirməkdə əsas təşkil edir.

Təlimdə nəzarətin səmərəsini qiymətləndirmək üçün onu bir sistem halında-bütün struktur ünsürləri ilə vəhdətdə nəzərdən keçirmək vacibdir. Nəzarət texnologiyası tam bir sistem kimi müxtəlif struktur komponentlərdən (məqsədi, funksiyaları, vasitələri, növləri, formaları və s.) ibarətdir. Pedaqoji və metodik ədəbiyyatın təhlili göstərir ki, müxtəlif mənbələrdə nəzarət metodikasının əsas istiqamətləri müəyyən dərəcədə uyğun gəlsə də, nəzarətlə bağlı müəyyən termin və anlayışlar, aparılan təsnifatlar və s. müxtəlif müəlliflər tərəfindən fərqli şəkildə şərh olunur. Belə fərqlilik məsələnin praktik tətbiqində müəyyən çətinliklər yaradır. Bu mənada nəzarət və onun struktur komponentləri ilə bağlı məsələyə aydınlıq gətirməyə ehtiyac vardır [1, s. 296].

Nəzarət təlim prosesində çox mühüm funksiyaları yerinə yetirir: təhsilalanların bilik və bacarıqlarının səviyyəsini, həcmini, dərinliyini üzə çıxarır (yoxlama funksiyası); biliklərin genişləndirilməsi və sistemləşdirilməsini təmin edir (öyrətmə funksiyası); tələbələrin bilik və bacarıqlarındakı kəsirləri, yol verilən səhvləri, onların xarakterini və səbəblərini öyrənməyə imkan verir. Nöqsanları aradan qaldırmaq üçün mənimsəmənin keyfiyyətini artırmaq, səhvləri islah etmək istiqamətində tədbirlər müəyyənləşdirməyə kömək göstərir (diaqnostik funksiya); gələcəkdə təhsil prosesini yaxşılaşdırmaq üçün proqnozlaşdırmaya şərait yaradır (proqnozlaşdırma funksiyası); tələbələrin psixi prosesləri (diqqət, hafizə, təfəkkür və b.), idrak fəallığı və yaradıcılığını, maraq, meyl, tələbat və qabiliyyətlərini inkişaf etdirir (inkişafetdirici funksiya); təhsilalanlarda təlimə məsuliyyət, səy, özünənəzarət, intizam, səliqəlilik keyfiyyətləri formalaşdırmağa kömək edir (tərbiyə funksiyası). [2, s. 320].

Nəzarətin qeyd edilən funksiyaları onun təhsil prosesindəki böyük rolunu və əhəmiyyətini göstərir. Bu funksiyaların təcrübədə reallaşdırılması nəzarətin səmərəliliyini artırdığı kimi, təlim prosesinin özünün də səmərəsini yüksəldir. Nəzarət funksiyalarını bilmək müvəffəqiyyətin hesaba alınması və qiymətləndirilməsinə daha ciddi yanaşmağa, bu prosesdə bir çox təhsil-tərbiyə vəzifələrini həll etməyə imkan verir.

Nəzarət və yoxlamaya verilən tələblərlə bağlı pedaqoji ədəbiyyatda vahidlik yoxdur: müxtəlif mənbələrdə 3-dən 7-dək tələb irəli sürülür [3, s. 119].

Nəzarət və yoxlama ilə bağlı üç tələb – obyektivlik, sistematiklik və əyanilik-aşkarlıq əksər müəlliflər tərəfindən qəbul edilir. Buna müəyyən qədər haqq qazandırmaq olar; çünki onlar ən başlıca tələblər-prinsiplər kimi çıxış edir. Pedaqoji mənbələrdə bu tələblərdən əlavə digər tələblər də irəli sürülür: hərtərəflilik, yoxlamanın fərdi xarakteri, yoxlama növlərinin qarşılıqlı əlaqəsi, xeyirxahlıq, konkretlik, optimallıq.

Elmi pedaqogikanın banisi, böyük çex pedaqoqu Y.A. Komenskinin yoxlama və qiymətləndirmə zamanı vaxtilə irəli sürdüyü xeyirxahlığın gözlənilməsi tələbi də çox vacibdir. Bəzən yoxlama və qiymətləndirmədən qorxu və təzyiq

vasitəsi kimi istifadə hallarına yol verilir. Böyük pedaqoq bu halı kəskin tənqid edərək, yoxlama və qiymətləndirmə zamanı obyektivliyi şagirdə humanist münasibətlə, xeyirxahlıqla əlaqələndirməyi vacib şərt sayırdı. O göstərirdi ki, şagird-müəllim münasibətləri mehriban rəftar, səmimi və açıq rəğbət əsasında qurulmalı, ciddilik mümkün dərəcədə şagirdlərə məhəbbətə çevrilməlidir. Yoxlama və qiymətləndirmə məqsəd yox, vasitə olmalıdır; o, təkcə şagirdlərin bilik və bacarıqlarındakı kəsirləri, səhvləri üzə çıxarmaq yox, onları aradan qaldırmaq məqsədi güdməlidir [4, s. 211].

Nəzarət və yoxlamanın səmərəsi və obyektivliyi bir çox amillərdən asılıdır. Onlardan başlıcalarına daxildir: təlimin ümumi və konkret məqsədlərinin dəqiq müəyyənləşdirilməsi, nəzarət nəticələrinin düzgün təhlili və qiymətləndirilməsi, optimal vasitə və metodların tətbiq edilməsi, nəzarətin lazımi səviyyədə təşkili, onun bütün struktur ünsürlərinin vəhdət halında həyata keçirilməsi və s.

Pedaqogika tarixində yoxlama növlərindən biri də böyük çex pedaqoqu Y.A. Komenskinin təklif və tətbiq etdiyi nəzarət, yoxlama və qiymətləndirmə sistemidir. Bu sistemə aşağıdakı yoxlama və imtahan növləri daxildir: saatlıq yoxlama (müəllim tərəfindən gündəlik dərslərdə aparılır), gündəlik yoxlama (günün sonunda müəllimin köməkçiləri-onbaşılar tərəfindən aparılır), həftəlik yoxlama (həftənin sonunda şagirdlərin açıq yarışması şəklində həyata keçirilir), aylıq yoxlama (ayın sonunda tədris rəhbəri və məktəb rəisi tərəfindən aparılır), trimestr (semestr) yoxlamaları (semestrin sonunda keçirilir və ən yaxşı şagirdləri seçib mükafatlandırmaq məqsədi güdür), illik imtahanlar – sinifdən-sinfə keçirmək məqsədi ilə aparılır [4, s. 354-355]. Böyük pedaqoqun bu yoxlama sisteminin elementlərindən müasir dövrümüzdə də yararlanmaq mümkündür.

Göründüyü kimi, yoxlamanın növləri ilə bağlı müasir təsnifatlarda müəyyən qeyri-dəqiqlik, bəzən ziddiyyətli yanaşmalar müşahidə olunur. Bu da, şübhəsiz, yoxlamanın praktik tətbiqinə təsirsiz qalmır. Deyilənləri ümumiləşdirmək əsasında nəzarət və yoxlamanın aşağıdakı növlərini göstərmək olar: ilkin, cari, tematik, dövri, yekun yoxlamalar. Pedaqoji təcrübədə daha çox tətbiq olunan bu nəzarət və yoxlama sisteminə daha bir neçə nəzarət və yoxlama növü əlavə edilir: təkrar yoxlama, təxirəsalınmış yoxlama, kompleks yoxlama. Hər bir nəzarət və yoxlama növü özünəməxsus dominant funksiyanı yerinə yetirir.

*İlkin nəzarət (yoxlama),* bir qayda olaraq, diaqnostik vəzifə daşıyır, tələbələrin (şagirdlərin) bilik və bacarıq səviyyəsini aşkara çıxarmağa və növbəti mərhələdə buna əsaslanmağa xidmət edir. Belə yoxlama ilin əvvəlində, yeni fənnin, bölmənin, mövzunun öyrənilməsindən qabaq keçirilir.

*Cari nəzarət (yoxlama)* müəllim üçün yoxlama funksiyası daşıyır (keçirilən mövzular üzrə mənimsəmə səviyyəsini və keyfiyyətini aşkara çıxarmağa imkan verir); tələbələr (şagirdlər) üçün isə stimullaşdırma rolunu oynayır: onları müntəzəm olaraq öz üzərilərində işləməyə, verilən tapşırıqları hazırlamağa, gündəlik dərsləri öyrənməyə, onların məsuliyyət hissini artırmağa sövq edir (tərbiyə funksiyası).

*Tematik nəzarət (yoxlama)* müəyyən bölmənin, mövzunun öyrənilməsindən sonra həyata keçirilir və öyrənilən biliklərin sistemləşdirilməsi məqsədi daşıyır.

*Dövri nəzarət (yoxlama)* müəyyən bir dövr ərzində keçilənlərin yoxlanması, sistemləşdirilməsi və ümumiləşdirilməsi məqsədi güdür. Belə yoxlama proqramın iri bölməsinin, fənnin bir hissəsinin – modulunun başa çatdığı semestrın, yarımilin sonunda aparılır.

*Yekun nəzarət (yoxlama)* – adətən, fənnin tədrisinin tam və ya qismən bitmiş hissəsinin başa çatması ilə əlaqədar semestrin və ya yarımilin sonunda aparılan yoxlama növüdür. Onun məqsədi tələbənin (şagirdin) faktik öyrənmə səviyyəsini aşkara çıxarmaq, diaqnozlaşdırmaqdan ibarətdir.

*Təkrar nəzarət (yoxlama)* cari və tematik yoxlamalarla paralel aparılan yoxlama növüdür. Yeni materialın öyrənilməsi ilə yanaşı əvvəl öyrənilmiş mövzuların da təkrarına, onların nə dərəcədə möhkəm mənimsənilməsini aşkara çıxarmağa kömək edir. Belə yoxlama diaqnostikanın digər növləri və metodları ilə uzlaşdırıldıqda lazımi səmərə verir [5, s.303].

*Kompleks nəzarət (yoxlama)* çox mühüm bir vəzifəni həyata keçirməyə imkan verir: belə yoxlamanın köməyi ilə tələbələrin əldə olunan bilik və bacarıqları müəyyən praktik məsələlərin

həllində tətbiq etmək qabiliyyətləri üzə çıxarılıb diaqnozlaşdırılır. Bu hal fənlərarası əlaqə prosesində daha çox özünü göstərir.

*Təxirəsalınmış nəzarət (yoxlama)* müəyyən mövzunun, bölmənin, fənnin öyrənilməsindən, yaxud semestr imtahanından müəyyən vaxt keçdikdən sonra tələbələrin (şagirdlərin) qalıq biliklərini aşkara çıxarmaq, öyrənilən bilik və bacarıqların nə dərəcədə möhkəm mənimsənildiyini yoxlamaq məqsədi güdür. [6, s. 193].

Təlim prosesində nəzarət və yoxlamanın növləri, metod, forma və vasitələri bir-birilə əlaqəli şəkildə, sıx vəhdət halında çıxış edir. Bilik və bacarıqlarım qiymətləndirilməsi zamanı da nəzarət və yoxlamanın kompleks vasitə və metodlarından istifadə etmək, ənənəvi qiymətləndirmə sistemindən yeni qiymətləndirmə sisteminə keçmək vacib şərtdir. Yeni qiymətləndirmə sisteminə keçid məktəb islahatının prioritet sahələrindən biri olmaqla təhsilin keyfiyyətinin yüksəldilməsi və monitorinqinin həyata keçirilməsi üçün çox mühüm amil kimi çıxış edir.

**Problemin aktuallığı.** Müasir dövrdə yeni qiymətləndirmə sistemi cəmiyyətin ehtiyac və tələblərini nəzərə almaqla təhsilin keyfiyyətini yüksəltməyə xidmət edir.

**Problemin elmi yeniliyi.** Yeni qiymətləndirmə sisteminə keçməyin vacibliyi ənənəvi qiymətləndirmə mexanizmində kök salmış problem və nöqsanların mövcudluğu və onların aradan qaldırılması zərurətindən irəli gəlir.

**Problemin praktik əhəmiyyəti.** Nəzarət-qiymətləndirmə sistemi tələbənin (şagirdin) faktik öyrənmə səviyyəsini aşkara çıxarmaq, diaqnozlaşdırmaqdan ibarətdir.

**Ədəbiyyat:**


1. Qədirov Ə.Ə. Yaş psixologiyası / Ə.Ə. Qədirov. -Bakı: Maarif,- 2002.- 386 s.
2. Paşayev, Ə.X. Pedaqogika (Yeni kurs): Dərs vəsaiti / Ə.X.Paşayev, F.A. Rüstəmov.- Bakı: Nurlan, -2007. - 464 s.
3. Kazımzadə, A. Kurikulum və onun hazırlanması (Metodik tövsiyələr). A. Kazımzadə, R. Mahmudova.- Bakı: - BDU,- 2014. - 68 s.
4. Komenski, Y.A. Böyük didaktika (Elmi redaktoru, nəşrə hazırlayanı və ön sözün müəllifi prof. F. Rüstəmov) / Y.A. Komenski. -Bakı: -Elm və təhsil,- 2012. - 388 s.
5. Qaralov, Z.İ. Tərbiyə (prinsiplər, məzmun, metodika). -3 ciddə,- II cild / Z.İ. Qaralov. - Bakı:- Pedaqogika, -2003.- 320 s.
6. Rüstəmov, F.A. Şərqdə pedaqogika tarixi F.A. Rüstəmov.- Bakı:- Nasir,- 2002.- 220 s.


**E-mail:** konul-adpu@mail.ru

**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* **L.N. Qasımova**
*ped.ü.fəls.dok., dos.* **C.V. Dadaşov**

**Redaksiyaya daxil olub:** 24.05.2021